Türküstan №7 17 - 23 fevral 2026-cı il



# İnam Ata (Asif Ata)

## Tarixə çatmaq. Babəkliyimiz

**İşıqlı ATALI**



***Ürəyinizdə Ata Günəşi olsun. İnam Atanın (Asif Atanın) "Tarixə çatmaq" əsəri tarixi taleyimizə, bugünümüzə, sabahımıza yetkin, müdrik baxışdır. Atanın özünəməxsus yaradıcılıq janrlarından olan fəlsəfi-bədii məqam janrındadır. "Tarixə çatmaq" əsəri insanın zamandan, mühitdən, şəraitdən üstünlüyünü təsdiq edir, faciələrimizi göstərməklə yanaşı, qədim – ruhsal olduğu dərəcədə döyüşkən böyüklüyümüzlə öyünmək imkanı, yurddaşlarımıza ictimai gedişatın bütün çalarlarına ruhsal gözlə baxmaq imkanı yaradır. İnam Ata Azərbaycanın tarixi şəxsiyyətlərinə ulusal baxış halı, ölçüsü sunur. Həmişə Ata təəssüflənirdi ki, Azərbaycanın bu boyda mənəvi zirvələri var, ancaq yenə də qaranlıqdan çıxa bilmirik. Səbəbi odur ki, Azərbaycan tarixən böyüklüyünü yaratdığı dərəcədə onu artıran, böyüdən, dəyərləndirən əməllər silsiləsi yetirə bilməyib. Əsərdən "Babəkliyimiz" bölümünü sunuram. Ata tarixi olaylara özünəməxsus, ciddi, mütləq ölçüylə baxır, fikirləri ulusal dərs almaq üçündür.***

***Kursivlə verilmiş sitatlar C.Bərgüşadın "Siyrilmiş qılınc" romanındandır.***

***Sayğıyla: İşiqli Atalı***

***

### I. Tələb Tarixi görmək üçün daxili göz gərək – ruhani.

### II. Babəkliyimiz Xəlifət boşluğu

***Keçilməz Boşluq yaşayır Xəlifə nəşəsevərliyində, zənginliyində, dəbdəbəsində.***

***Boşluğa doğrudur Xəlifə ömrünün yönü, bərli-bəzəkli məqamlarda neçə əsrlik Boşluq yaşayır; Boşluqla zəngindir ömrü Xəlifənin, Boşluq yaşadır ömründə Xəlifə – ömür Mənadan ayrılıb, mənasızlaşıb.***

***Xəlifə Möhtəşəmliyində, mənəm-mənəmliyində Boşluq var – çilçıraqlı.***

Xəlifətin mənasında, mahiyyətində, zülmündə, zinətində, həşirində, haytasında, əzəmətində, şəhvətində Boşluq var – həşəmətli.

"Xəlifənin başı Neron kimi ovdan, kefdən ayılmazdı. O, hər gün Altun sarayındakı qızıl ağacın altında dəbdəbəli məclislər düzəltdirər, burada şamların zərif işığı altında yarımçılpaq rəqqasələrlə əylənər, gözəl kənizlərin nəğmələrinə qulaq asardı. Qızıl yəhərin qaşında daş-qaşlar bərq vururdu. Üzəngi də qızıldan idi. Atın cilovu nadir mirvarilərlə, incilərlə bəzədilmişdi. Qara at çilçıraq kimi alışıb yanırdı".

İri meydandır Xəlifət – ancaq mahiyyətcə Boşdur, insanilikdən məhrumdur, ona qarşıdır.

Qorxuncdur Xəlifət Qanlı Boşluq Zəhmiylə, zəncirləyən, boğazlayandır – ancaq Boşdur, boş olduğu üçün də Mənasızdır: Qılıncı kəsərlidir, Qamçısı tutarlıdır. Dünyanı lərzəyə salıb, ancaq Boşdur – çünki haqsızdır.

Xəlifətdə Dövr mənasını itirib – Azğınlaşıb, Azğınlıq Boşluğun özünütəsdiqidir əslində.

"Boyunlarında qurğuşun asılmış əsirlər yorulub taqətdən düşmüşdülər. Qandalların cingiltisi səhər-səhər Bağdadı ayağa qaldırmışdı. Qara bir nərin boynundan zınqırov əvəzinə uşaq cəsədi asılmışdı; nər boynunu qaldırıb nərildəyə-nərildəyə irəlilədikcə uşaq cəsədinin ayaqları ananın pərişan, sarışın saçlarına toxunurdu".

Dünyanı qamarlayır Boşluq; mənimsəyir, tapdayır, istək həddini ötür, nəfsini doydurur, hərisliklə, harınlıqla, həqarətlə dolur Boşluq.

"Bu binalarda yüzlərlə xacənin diqqətli nəzərləri altında Xəlifə Harun ər Rəşidin "inciləri", hərəmləri saxlanılırdı.

Yumşaq və zər-zibalı hərəm otağında ən gözəl qızların namusu qarət edilirdi".

Boşluq Zinətlə cilvələnir, ancaq İşıqsızdır, çünki Mənasızdır.

"Buradakı daş-qaşlar az qalırdı güzgüyə od salsın.

Bədəxşan ləli, Xorasan alması, Hind mirvariləri.

Brilyant qolbaqlar, bilərziklər, silsilələr, cıqqalar, topuq zınqırovları, bahalı üzüklər, sırğalar".

Varlı olduğu dərəcədə kasıbdır Xəlifət; Var hərisliyi, harınlığı dərəcəsində kasıbdır – Zinətin İşığı Boşdur.

Qızıldan dünya düzəldir; İncidən, Mirvaridən, Taxtdan, Tacdan, Zülmdən, Məkrdən, Həqarətdən dünya düzəldir – ancaq dünyasızdır – Dünyadan beşəlli yapışıb, ancaq Dünyası yoxdur Boşluğun.

"Qızıldan düzəldilmiş şamların işığı Qızılağacın budaqlarında bərq vururdu.

Qızılağacda on iki budaq düzəltmişdilər.

Qızılağacın hər bir budağında bir neçə qızıldan tökülmə quş oxuyurdu". "Müqəssirin başı qırxılandan sonra onun kəlləsinə Mesopatomiya böcəyi düzürdülər".

Göz qamaşdıran və qorxudan əzəmət mahiyyətcə Boşdur, çünki ruhaniyyatdan məhrumdur.

Dünya Mənasından ayrılıb, bu səbəbdən də Mənasızlıqdan yapışıb, Mənasızlığa qapılıb.

Xəlifət Fəallığında Ruhani Fəalsızlıq var, Xəlifət Həyatsevərliyində Ruhani Ölülük var.

Dünya Boş olanda Qatilləşir. Başkəsənlər,



gözçıxaranlar, fitnətörədənlər dövranı yaranır. Dünya Boş olanda Qətllə dolur.

"Başsız cəsədlər, bərələ qalmış gözlər, qıcanmış dişlər".

Qardaşın başını qardaşa hədiyyə gətirirlər.

Dünyanın ahəngi pozulur.

"Siyrilmiş qılınc" romanının müəllifi tarixə daxili göz ilə baxa bilmir, hadisələri nəql eləyir, mahiyyətə varmır, mütəfəkkirlikdən uzaqdır, bu səbəbdən də Xəlifəlik bilinir – dərk olunmur.

***O, Xəlifəlik cəzbindən ayrıla bilmir. Xəlifə şirnisinə istəklənir.***

***Aşağıdakı sətirlərdə xəlifə qismətinə tamahlı şövq duyulur.***

***Müəllif yanğısıyla yazılıb bu səhnə – şəhvətə yarayan.***

***"Qərənfil üzünü qızılı saçlarına bürüdü, əlləri uçundu. Ətirli ipək saçları sürüşüb dağıldı.***

Harunun başı onun köksündə idi. Xəlifə məşuqəsinin paltarını tamam soyundurdu. Qız qaranlıq otaqda şamtək yanırdı".

Nəhəng Boşluq yaratdı Xəlifət Şərqdə, – Şərin Xeyrinə; – Mənadan ayırdı, Mənaya qarşı çevirdi dövrü.

### Məna

Dövrana Məna verən Babək oldu, – Xəlifəlik Boşluğunu Yenilməzlik və Müdrikliklə dolduran, Xürrəmi Fəlsəfəsini yaradan, 23 Spartakımız, daxilində Şirvin gəzdirən, ənəlhəqdən əvvəlki ənəlhəqqimiz; həm sərkərdə, həm filosof, həm cəngavər, həm təlimçi, bütün dünyada Xəlifətə qarşı duran yeganə Qüvvət, azadlıqdan böyük tanrı tanımayan; İşğalçı Nifrəti qazanan; qolu kəsilən, ayağı kəsilən, xatirəsi şaqqalanan, Yağı lənətiylə şərəfləndirilən, həlak olan – Yenilməyən, tarixi Xəttə, Səddə çevrilən.

Hürmüzd İşığı yandırdı Qaranlıqda, nəhəng Düşmənə – Əhrimənə qarşı durdu, "Dünya – Fərəhdir!" – dedi. Qəhrəmanlıqdan böyük Fərəh tanımadı, İslam Allahında əsarət gördü; qəsbkarlıq, müstəbidlik gördü; bəndəliyi İnsani ləyaqətinə sığışdırmadı; can gətirdi Zəmanəyə, lərzə saldı Xəlifətə, üzünü ağartdı Şərqin.

***"Siyrilmiş qılınc"da Babəkin ayrı-ayrı nişanələri görünürsə də, bütöv Babək görünmür; dahilik, qeyri-adilik, bənzərsizlik dərk olunmur, açılmır, idraki, ilahi Qəhrəmanlıq İntiqamçılıq kimi qiymətləndirilir, Babək kiçilir.***

Müəllif dəfələrlə eyni motivi təkrarlayır: qanı qanla yumaq, qisas almaq, qanı yerdə qoymamaq Tələbi. Babək romanda Qisas andıyla tarixi səhnəyə atılır; "Siyrilmiş qılınc" əsərdə ən çox intiqam rəmzi kimi canlanır, əslində isə o, azadlıq rəmzi kimi canlanmalıydı.

Babəkilik intiqama siyrilməmişdi, Qəsbkarlığa qarşı siyrilmişdi, siyrilmiş qılınc xətlərində kəsilən başlar həkk olunmamışdı, Ləyaqət uğrunda döyüşlərin Mənası həkk olunmuşdu; Babək təzə Din yaratmışdı – Xəlifəliyə Yad; bu Dinin Mahiyyətində Yenilməzlik Fərəhi dayanmışdı; İnsanın özünə tam Sahib olması, Özünəməxsusluğu, İlahiliyi dayanmışdı – Qəzavü- qədər xofuna Yağı

Babəkə misilsiz Ruhani Qüdrət bəxş olunmuşdu, bu səbəbdən də o, daxilində Şirvin – Ölməz Ruh görürdü. Həmin Şirvinlik Qəhrəmana Azmanla Döyüş İnamı vermişdi.

Ruhani Qəhrəmanlıq idi Babəkilik – İntiqamçılıq deyildi!

Romanda isə Babəkilik ardıcıl, hiddətli, aramsız İntiqamçılıq kimi təqdim olunur; qisas Babəkiliyin əsas cəhətinə çevrilir: intiqamçılıq motivi dəfələrlə təkrarlanır.

"Uff. Düşməndən bircə gün artıq yaşaya bilsəydim!" (Cavidanın son sözü).

"Mən özüm kəsdim düşmənin başını, oxay, indi sükut evinə rahat gedə bilərəm" (Xürrəmi izharı).

"Buynuzlu qoçun qisası buynuzsuz qoçda qalmaz".

"Ey igid, əgər qılıncı qınına qoyacaqsansa, dəstəyə əl atma!"

"Qılıncın qınında yatmasın, xəlifələrdən intiqam alsın".

"Qılıncı heç vaxt kəsərdən düşməsin – atası Abdullanın qanını alsın".

"Ey igid, qisas al!"

Babəkilərin ürəyində yanan Hürmüzd odu – Ruhani Yüksəklik, Təmizlənmə, Özünəçatma Odu idi, Qisasçılıqdan fərqli.

Babək qılıncıyla Azadlığı, Xürrəmiçiliyi qoruyurdu, İntiqamçılığı o, qəlbində qorumurdu, qoruya bilməzdi, Hürmüzd Odu Babəkin ruhunda idi, onu alovlandırmaq üçün xüsusi Hum içkisinə ehtiyac yox idi; Qan özü coşğun idi, onu süni surətdə coşdurmaq lazım deyildi: Hum sayəsində coşan qanda Ülvilik olmaz.

Müəllif isə Hum qüdrətinə əksildir Babəkiləri; bəsitləşdirir, kiçildir:

"Hum könlümüzü Günəşli göylərə döndərsin".

"Hum, coşdur qanımızı!"

"Sənsiz həyat heç nədir".

"Ey müqəddəs Hum, səni içirik, ona görə ki, canımıza od gətirəsən, ürəyimizi ocağa döndər, damarlarımızda qığılcım artır".

Babəkilərin məbədlərində Hürmüzd odu yanır, bəzək çilçırağına yad.

Müəllif Məbədi zinətləndirir, daş-qaşla bəzəyir, bununla da onu zamana səviyyəsinə endirir.

Əslində isə Məbədin Məbədliyi zamandan yüksək olmasındadır, zamanaya uyğunlaşan Məbəd – Məbəd olmur.

"Məbəd-Məbədanın qırmızı saqqalından brilyant, almaz və yaqut danəcikləri asılmışdı.

Günəşin işığında saqqal bərq vururdu».

Brilyantlı saqqal ruhani İşıqsızlıq əlamətidir, xəlifət zülmətinin rəmzidir, – Zərdüştçülüyə yad.

Babəkin düşməni Xəlifət idi; ərəb deyildi, türk deyildi.

Romanda türklər Babəkin az qala ən qəddar düşmənləri kimi təqdim edilir.

Müəllif "vəhşi türk" konsepsiyasını ehtirasla, ardıcıl şəkildə təkrarlayır; türklərin dağıdıcı qüvvə olması haqqında avropasentrik həqarəti təsdiqləyir, imkan tapdıqca türkə çirk atır.

Romanda ən dəhşətli zalımlıqları türklər törədirlər.

"Bəzən də uşaqları analarından alıb hara gəldi tullayırdılar.

Yollarda çoxlu ana meyidi qalmışdı".

Onlar şəhərin Gözəllik və Mərdlik simvolu olan şir heykəllərini harda görsələr, çilikləyib küçələrə tökürdülər.

"Xaqan məscidləri qəsdən at tövlələrinə döndərmişdi".

Əsərdə Babəkə qarşı amansızcasına, dəlicəsinə, həriscəsinə döyüşənlər türklərdir.

"Sərkərdə İshaqın sərəncamına ardı-arası kəsilməyən dəliqanlı türk döyüşçüləri göndərildi.

Onların arasında Afrikadan gətirilmiş çevik zəncilər də vardı".

***"Səhra küləklərindən qarsılmış türklər, qumlu səhralarda od içində böyüyən bədəvilər, Afşinin Afrikadan gətirdiyi yarımvəhşi zəncilər".***

***Romanda türklər təbii qan tökən, fitri yırtıcı kimi təsvir olunur.***

"Onlara (ərəblərə – A.A.) kəl kimi qüvvətli, yarımvəhşi insanlar lazım idi".

"Deyirdi ki, mənə Mavəraünnəhrin qumlu çöllərində qoyun-quzu otarırkən, ilxı bəsləyərkən, qara, çovğuna, borana düşmüş qoçaq türklər lazımdır.

Mənə elə oğlanlar lazımdır ki, sürülərinə, naxırlarına, ilxılarına soxulan pələnglərlə, şirlərlə, canavarlarla üzbəüz gəlmiş, otlaq üstündə, it üstündə bir-birinə ox atmış, bir-birinin üstünə qılınc çəkmiş olsunlar".

Türklərə verilən bu kinli xasiyyətnamədə İdrak görünmür – şiddətli hikkə görünür – iradəni üstələyən.

Romanda tərki-dünyalıq Təriqətinə də münasibət etiraz doğurur.

Müəllifin "Həyatı tabutda axtarmaq" kimi səciyyələndirdiyi tərkidünyalıq əslində Xəlifət haramzadalığına, murdarlığına, ruhsuzluğuna qarşı mənəvi üsyan idi, tərki-dünyalar dünyasız deyildilər – ancaq onların dünyası hərəmxana və mütilik qəbahətindən kənardaydı; onlar xəlifət həqarətinə bulaşmırdılar, mənəviyyatı çirkabdan qoruyurdular, çəkilmişdilər dəbdəbəli rəzalətdən, öz tanrılarını – ülviyyət rəmzini ürəklərində bəsləyirdilər, xalisləşir, təzələşir və tanrılarına qovuşurdular; təzə İnam, təzə İdrak, təzə Mənəviyyat, təzə İradəydi tərki-dünyalıq – Şərqin ruhani xilası, Bədiiyyatın beşiyi.

Həyatı tabutda axtarmırdılar tərki-dünyalar – Həyatı İdealda, Mənəvi ucalıqda axtarırdılar, qaranlığı tərk edirdilər, işığa çıxırdılar.

Müəllif ilə təsvir elədiyi dünya arasında doğmalıq duyulmur, bu səbəbdən də romanda Şərqi mahiyyət görünmür.

Babəkilik idi Xəlifət dövrünün mənası – qanlı-qadalı, pozulmaz.

### İşıq

***Füzuli göz yaşıyla işıqlandırdı Şərqi, Babək qanıyla.***

***Qətl olundu – Qətlindən İşıq yarandı.***

***Babəkliyimiz bitdi Mahiyyətdə, Mənada – Ağac-ağac, hal-hal təzələşən, köhnəlməyən – Qədimləşən.***

**(1991)**